Одним из признаков прерывания беременности на ранних сроках является ретрохориальная гематома [3]. Ретрохориальная гематома — специфическое патологическое состояние, возникающее на ранней стадии беременности, которое развивается в результате частичной отслойки хориальной пластинки от подлежащей децидуальной оболочки при генетически нормальном плодном яйце и проявляется в виде кровоизлияния и гематомы в субхориальном пространстве. Необходимо отметить, что ретрохориальная гематома составляет около 18% всех случаев кровотечения на ранних сроках гестации [4, 5].

В настоящее время нет единого мнения о причине образования ретрохориальной гематомы. Существует множество причин, способных вызвать подобное осложнение, поэтому предупредить ее появление практически невозможно, так же как и установить точную причину образования гематомы. В некоторых случаях возникновение ретрохориальной гематомы связывается с чрезмерными физическими нагрузками и негативным воздействием различных факторов внешней среды [6, 7, 8]. Образование ретрохориальной гематомы также может быть вызвано рядом заболеваний, среди которых выделяют различные воспалительные и инфекционные болезни, некоторые аутоиммунные заболевания, а также патологии свертывающей системы организма [9].

Цель исследования: выявить анамнестические и клинические факторы риска развития ретрохориальной гематомы на ранних сроках гестации.

Материал и методы исследования. *Для* реализации поставленной цели проведено сравнительное обследование различных групп беременных женщин. Сформированы следующие клинические группы. В основную группу вошли 100 беременных женщин с признаками угрозы прерывания на ранних сроках и диагностированной ретрохориальной гематомой. Группу сравнения составили 80 беременных с угрозой прерывания на ранних сроках, но без ретрохориальной гематомы. В контрольную группу вошли 30 условно здоровых женщин с физиологическим течением беременности.

Критериями включения в основную группу исследования служили: срок беременности от 6 до 12 недель; угрожающий выкидыш на момент включения в исследование, проявляющийся болями внизу живота и в пояснице, наличием ретрохориальной гематомы по данным УЗИ; жизнеспособный эмбрион, позитивный настрой женщины на пролонгирование беременности. Критерии исключения: аномалии развития эмбриона, тяжелые эктрагенитальные заболевания матери, являющиеся противопоказаниями *для* пролонгирования беременности, инфекционные заболевания**.** Оценивались возраст, рост и масса тела, социальные показатели, факторы акушерского анамнеза, гинекологические и экстрагенитальные заболевания.

Оценка статистической значимости проверялась с помощью программы IBM Statistics SPSS-26. Статистическую обработку полученных результатов проводили с применением программы статистического анализа MS EXCEL2019. Определяли среднеарифметическую (M), ошибку среднего арифметического (m). *Достоверность* различий между группами устанавливалась по t-критерию Стьюдента, *для* малых и неоднородных групп – по U-критерию Манна-Уитни.

Применялись общепринятые уровни значимости — p <0,05, p <0,01 и p <0,001.

Результаты и обсуждение. Возраст пациенток, включенных в исследование, варьировал от 16 до 42 лет (в среднем – 27,7±0,3лет). Средний возраст женщин в основной группе составил 27,1±0,4 лет, в группе сравнения - 28,2±0,6 лет, в контрольной группе – 28,1±0,9 лет. По нашим данным достоверных различий между средними величинами возраста среди пациенток всех групп наблюдения не выявлено (p=0,199), что является признаком однородности сформированных групп. Вместе с тем наиболее возрастные беременные находились в группе сравнения. Преобладающее число женщин, вошедших в исследование, были в возрасте от 26 до 30 лет.

В основном беременные проживали в городских условиях (n=127; 60,5%) и в меньшей степени – в сельской местности (n=83; 39,5%). Полученные результаты показали отсутствие влияния места проживания на вероятность развития такого клинического состояния как угроза прерывания беременности. Пациентки были представлены различными социальными группами. Для разделения использовали три возможных варианта: беременная работает, является студенткой, является домохозяйкой. Сравнение состава социальных слоев основной группы, группы сравнения и контрольной группы не выявило статистически значимых различий. Наряду с этим, независимо от характера трудовой деятельности, беременные не сталкивались с профессиональными вредностями, которые могли бы повлиять на вероятность развития угрозы ее прерывания и на формирование ретрохориальной гематомы. Анализ уровня образования показал, что основная масса женщин имела среднее образование – 172 (82,0%). Изучение социально-бытового статуса пациенток показало, что на момент проведения исследования 2 (2,0%) женщины основной группы указали на материальные затруднения. Оценили свое материальное положение как удовлетворительное 98 (98,0%) беременных основной группы, 80 (100,0%) женщин группы сравнения и 30 (100,0%) – контрольной группы. Жилищно-бытовые условия проживания оценили, как неудовлетворительные 4 (4,0%) беременные основной группы и 2 (2,5%) – группы сравнения. Анализ распределения женщин в группах по семейному положению показал, что в основной группе 99 (99,0%) беременных состояли в браке, в группе сравнения – 79 (98,8%), в контрольной группе – все 30 (100,0%) женщин.

С целью оценки антропометрических данных было проведено сравнение индекса массы тела (ИМТ) у обследованных женщин. Исходя из полученных данных, в контрольной группе женщин ИМТ соответствовал норме у 7 (23,3%), излишняя масса тела наблюдалась у 11 (36,7%), ожирение I степени – у 8 (26,7%), ожирение II степени – у 4 (13,3%) пациенток. В группе беременных женщин с угрозой прерывания беременности и развитием ретрохориальной гематомы ИМТ соответствовал норме у 25 (25,0%), излишняя масса тела наблюдалась у 37 (37,0%), ожирение I степени – у 22 (22,0%), ожирение II степени – у 6 (6,0%), ожирение III степени – у 10 (10,0%) пациенток. В группе беременных женщин с угрозой прерывания беременности без развития ретрохориальной гематомы ИМТ соответствовал норме у 28 (35,0%), излишняя масса тела наблюдалась у 30 (37,5%), ожирение I степени – у 16 (20,0%), ожирение II степени – у 4 (5,0%), ожирение III степени – у 2 (2,5%) пациенток. Показатель ИМТ был наименьшим в группе беременных женщин с угрозой прерывания беременности без развития ретрохориальной гематомы - 27,4±0,6кг/м^2. В группе беременных женщин с угрозой прерывания беременности и развитием ретрохориальной гематомы показатель ИМТ был равен 29,0±0,6кг/м^2, в контрольной группе - 29,4±0,8 кг/м^2.

Проведенный анализ сформированных групп наблюдения по демографическим характеристикам, социальному положению, характеру трудовой деятельности, наличию профессиональных вредностей показал отсутствие значимых различий, что позволяет использовать данные группы при исследовании факторов риска формирования ретрохориальной гематомы.

Показатели экстрагенитальной заболеваемости до настоящей беременности были высокими во всех группах наблюдения, однако наибольшие значения регистрировались в основной группе – 77 (77,0%) случаев (p=0,030). Несколько ниже уровень заболеваемости был среди беременных группы сравнения – 58 (72,5%) случаев (p=0,114). Самый низкий уровень экстрагенитальной патологии наблюдался среди беременных контрольной группы – 17 (56,7%) случаев. В связи с тем, что нами были найдены статистически значимые отличия по распространенности экстрагенитальных заболеваний между беременными

основной группы, группы сравнения и контрольной группы, мы считаем, что соматические заболевания могут являться инициирующим фоном для развития ретрохориальной гематомы. Необходимо отметить, что накопленная частота соматической заболеваемости была выше в основной группе – в 4,5 раза и группе сравнения – в 3,4 раза по сравнению с контрольной группой, и это, вероятно, повлияло на репродуктивные анамнестические данные.

Анализ данных гинекологического анамнеза позволил выявить более высокий уровень гинекологической заболеваемости среди беременных основной группы – у 35 (35,0%; p=0,122) пациенток, тогда как у беременных группы сравнения он был ниже на 20% (n=12; 15,0%; p=0,530). В контрольной группе гинекологические заболевания в анамнезе присутствовали у 6 (20,0%) женщин. Таким образом, анамнез женщин основной группы отягощен гинекологической патологией, что может отражаться в нарушении волн инвазии хориона, формировании ретрохориальной гематомы, нарушении развития беременности.

Пациентки всех групп были обследованы на наличие антител класса IgA, IgM, IgG к таким инфекциям, как Mycoplasma hominis и Ureaplasma urealyticum. Анализируя фактор половой инфекции в анамнезе у беременных, вошедших в исследование, достоверных различий в группах по распространенности этих инфекций выявлено не было. Случаев микоплазмоза ни в одном наблюдении не отмечалось (p=1,000). Маркер активной уреаплазменной инфекции наблюдался только у 7 (7,0%) беременных основной группы (p=0,134).

Выраженных нарушений в становлении и характере менструальной функции в группах наблюдения не выявлено. Регулярный менструальный цикл среди беременных основной группы прослеживался у 95 (95,0%) женщин, в группе сравнения – у 71 (88,8%) пациентки, в контрольной группе – у 27 (90,0%) женщин (таблица 1).

Таблица 1.
Характеристика менструальной функции обследованных женщин

Показатели		Группы наблюдения						Достоверность		
		контрольная группа(n=30)		группа сравнения (n=80)		основная группа (n=100)		Pp	P_H	Pu
		абс.	%	абс.	%	абс.	%			
Менстр. функция	Регулярная	27	90,0%	71	88,8%	95	95,0%	*0,286*	*0,288*	0,852K/N 0,319K/Ə 0,121N/Ə
	Нерегулярная	3	10,0%	9	11,3%	5	5,0%			
Нарушение менстр. цикла	отсутствует	24	80,0%	64	80,0%	81	81,0%	0,988	0,981	0,954K/N 0,933K/Ə 0,844N/Ə
	полименорея	3	10,0%	6	7,5%	8	8,0%			
	олигоменорея	3	10,0%	10	12,5%	11	11,0%			
	аменорея	0	0,0%	0	0,0%	0	0,0%			

Нерегулярный менструальный цикл наблюдался только у 5 (5,0%) беременных основной группы, 9 (11,3%) пациенток группы сравнения и у 3 (10,0%) женщин контрольной группы. Нарушение менструального цикла по типу полименореи отмечалось у 8 (8,0%) беременных основной группы, у 6 (7,5%) – группы сравнения и у 3 (10,0%) женщин контрольной группы. Олигоменорея наблюдалась у 11 (11,0%) пациенток основной группы, у 10 (12,5%) – группы сравнения и у 3 (10,0%) женщин контрольной группы. Случаи аменореи не были отмечены ни в одном наблюдении. Статистически значимых различий не наблюдалось (p>0,05), следовательно, различные нарушения менструальной функции никак не влияют на формирование ретрохориальной гематомы.

Для определения возможной роли наследственных факторов в реализации тромбоэмболических осложнений был изучен семейный тромботический анамнез групп исследования. При наличии тромбозов у родственников первой и второй линии родства семейный тромботический анамнез считали отягощенным. Изучение семейного анамнеза тромбозов свидетельствует, что у 30 (100,0%) женщин контрольной группы, 79 (98,8%) – группы сравнения и 100 (100,0%) пациенток основной группы тромботические события

у родственников пациенток не встречались. Только в 1 (1,3%) случае у пациентки из группы сравнения семейный тромботический анамнез был отягощен (таблица 2). Согласно результатам нашего исследования, случаев наследственной тромбофилии в анамнезе ни в одном случае не установлено. Таким образом, можно предположить, что формирование ретрохориальной гематомы у обследованных беременных не имело семейной истории венозных тромботических осложнений. В личном анамнезе у 14 (46,7%) женщин группы контроля, 9 (11,3%) женщин группы сравнения и 11 (11,0%) пациенток основной группы имелись указания на наличие венозного тромбоза, что, однако, не подкреплялось статистической достоверностью (p>0,05).

Таблица 2.
Тромботический анамнез обследованных женщин

Анамнестические показатели		Группы наблюдения						Достоверность		
		контрольная группа (n=30)		группа сравнения (n=80)		основная группа (n=100)		Pp	PH	Pu
		абс.	%	абс.	%	абс.	%			
Ailəvi trom anamnez	yox	30	100,0	79	98,8	100	100,0	0,442	0,444	0,540 K/N 1,000 K/Ə 0,264 N/Ə
	var	0	0,0	1	1,3	0	0,0			
AG trombofiliya	yox	30	100,0	80	100,0	100	100,0		1,000	1,000 K/N 1,000 K/Ə 1,000 N/Ə
	var	0	0,0	0	0,0	0	0,0			
Şəxsi tromb anamnez	yox	16	53,3	71	88,8	89	89,0	0,000	0,000	0,000 K/N 0,000 K/Ə 0,958 N/Ə
	var	14	46,7	9	11,3	11	11,0			
Anamnezdə RH	yox	23	76,7	53	66,3	20	20,0	0,000	0,000	0,295 K/N 0,000 K/Ə 0,000 N/Ə
	var	7	23,3	27	33,8	80	80,0			
AFS	yox	24	80,0	61	76,3	35	35,0	0,000	0,000	0,677 K/N 0,000 K/Ə 0,000 N/Ə
	var	6	20,0	19	23,8	65	65,0			

Анализ анамнестических показателей выявил наличие ретрохориальной гематомы в предшествующих беременностях у 7 (23,3%) пациенток контрольной группы, 27 (33,7%) женщин группы сравнения (p=0,295) и 80 (80,0%) женщин основной группы (p=0,000), что значительно ухудшает шансы на благополучное завершение настоящей беременности.

Антифосфолипидный синдром – одно из самых частых не только аутоиммунных, но и тромбофилических нарушений. В нашем исследовании, 6 (20,0%) женщин контрольной группы, 19 (23,8%) пациенток группы сравнения (p=0,667) и 65 (65,0%) беременных основной группы (p=0,000) страдали от антифосфолипидного синдрома, что имело статистически значимые различия.

Заключение. Анализ клинико-анамнестических данных, соматической и гинекологической заболеваемости, показателей тромбофилических нарушений выявил признаки, которые могут потенциально рассматриваться как факторы угрозы невынашивания с формированием ретрохориальной гематомы на ранних сроках беременности. Проведенный анализ позволяет сделать следующие выводы:

- у 77% беременных с ретрохориальной гематомой в анамнезе имелись указания на соматическую патологию;
- анамнез 35% беременных с ретрохориальной гематомой был отягощен гинекологической патологией;
- у 80% женщин с ретрохориальной гематомой анализ анамнестических показателей выявил ее наличие в предшествующих беременностях;
- у 65% беременных с ретрохориальной гематомой в анамнезе имелись указания на антифосфолипидный синдром.

XÜLASƏ

Retroxorial hematoma əlamətləri olan hamilə qadınlarda klinik və anamnestik göstəricilərin xüsusiyyətləri

N.A. Əzizova
R.Mirqasımov adına Respublika Klinik Xəstəxana, Bakı, Azərbaycan

Açar sözlər: *hamiləlik, retroxorial hematoma, klinik və anamnestik parametrlər*

Hal-hazırda, retroxorial hematomun meydana gəlməsinin səbəbi ilə bağlı konsensus yoxdur. Tədqiqatın məqsədi erkən hamiləlikdə retroxorial hematomanın inkişafı üçün anamnestik və klinik risk faktorlarını müəyyən etmək idi. Üç müşahidə qrupu yaradılıb. Əsas qrupa erkən mərhələdə düşük təhlükəsi əlamətləri və retroxorial hematoma diaqnozu qoyulmuş olan 100 hamilə qadın daxildir. Müqayisə qrupu erkən mərhələdə düşük təhlükəsi olan, lakin retroxorial hematoması olmayan 80 hamilə qadından ibarət idi. Nəzarət qrupuna hamiləliyin fizioloji olan, sağlam görünən 30 qadın daxil edilib. Tədqiqatın nəticələri retroxorial hematoma tarixi olan hamilə qadınların 77%-ində somatik patologiyanın əlamətləri olduğunu göstərdi. Retroxorial hematomalı hamilə qadınların 35%-nin anamnezi ginekoloji patologiya ilə ağırlaşmışdır. Retroxorial hematoma olan qadınların 80%-ində anamnestik göstəricilərin təhlili əvvəlki hamiləliklərdə onun mövcudluğunu aşkar etdi. Retroxorial hematoma tarixi olan hamilə qadınların 65%-ində antifosfolipid sindromunun əlamətləri var idi. Beləliklə, klinik və anamnestik məlumatların, somatik və ginekoloji xəstələnmənin, trombofilik pozğunluqların göstəricilərinin təhlili erkən hamiləlikdə retroxorial hematomun formalaşması ilə düşük üçün potensial təhlükə faktoru kimi qəbul edilə bilən əlamətlər aşkar etdi.

SUMMARY

Characteristics of clinical and anamnestic indicators in pregnant women with signs of retrochorial hematoma

N.A. Azizova
Republic Clinical Hospital Baku, Azerbaijan

Key words*: pregnancy, retrochorial hematoma, clinical and anamnestic indicators.*

Currently, there is no consensus on the cause of retrochorial hematoma formation. The purpose of the study was to identify the anamnestic and clinical risk factors for the development of retrochorial hematoma in early gestation. Three observation groups were formed. The main group included 100 pregnant women with signs of a threatened miscarriage in the early stages and a diagnosed retrochorial hematoma. The comparison group consisted of 80 pregnant women with the threat of miscarriage in the early stages, but without retrochorial hematoma. The control group included 30 apparently healthy women with a physiological course of pregnancy. The study results showed that 77% of pregnant women with a history of retrochorial hematoma had indications of somatic pathology. The anamnesis of 35% of pregnant women with retrochorial hematoma was aggravated by gynecological pathology. In 80% of women with retrochorial hematoma, the analysis of anamnestic indicators revealed its presence in previous pregnancies. In 65% of pregnant women with a history of retrochorial hematoma, there were indications of antiphospholipid syndrome. Thus, the analysis of clinical and anamnestic data, somatic and gynecological morbidity, indicators of thrombophilic disorders revealed signs that can potentially be considered as threat factors for miscarriage with the formation of retrochorial hematoma in early pregnancy.

ЛИТЕРАТУРА

1. Буштырева И.О., Кузнецова Н.Б., Заманская Т.А., Дмитриева М.П. Прогностические маркеры ранних репродуктивных потерь у пациенток с ретрохориальной гематомой // Акушерство и гинекология. 2016. № 1. С. 28-33.
2. El-Hachem H., Crepaux V., MayPanloup P. Recurrent pregnancy loss: current perspectives // Int. J. Womens Health. 2017; 9:331–45.

3. Николаева А.Е., Беженарь В.Ф. Клиническое значение ретрохориальной гематомы как фактора риска возникновения перинатальных осложнений // Акушерство и гинекология Санкт-Петербурга. 2019; 3-4: 32-36.
4. Bennett GL, Bromley B, Lieberman E. Subchorionic hemorrhage in firsttrimester pregnancies: prediction of pregnancy outcome with sonography // Radiology. 2016; 200:803–806.
5. Coomarasamy A., Devall A.J., Cheed V. et al. A randomized trial of progesterone in women with bleeding in early pregnancy // N. Engl. J. Med. 2019; 380(19):1815-24
6. Кузнецова А.А. Течение и исход беременности при рецидивирующей ретрохориальной гематоме // Врач. 2019; 30 (9): 18-23.
7. Романенко Т.Г., Жалоба Г.Н., Стаселович Л.Ю. Ведение беременности на фоне ретрохориальной гематомы в I триместре гестации // Здоровье женщины. 2018; 9 (135):118.
8. Султангаджиева Х.Г., Хизроева Д.Х. Патогенетически дифференцированное ведение беременности у пациенток с ретрохориальной гематомой // Акушерство, гинекология и репродукция. 2020; 14 (1): 15-24.
9. Заболотнов В.А., Хватова О.О., Сегедина Я.П. Тромбофилии и акушерские осложнения // Здоровье женщины. 2019;2(138):56–60.

QADINLARDA ONKOGİNEKOLOJİ XƏSTƏLİKLƏRİN DİAQNOSTİKASINDA MAYE ƏSASLI PAP YAXMA VƏ ADİ PAP-KLASSİK SİTOLOJİ ÜSULLARIN MÜQAYİSƏLİ TƏHLİLİ

C.F. Qurbanova, N.B. Məcidova
Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı, Azərbaycan

Açar sözlər: *uşaqlıq boynu xərçəngi, papillomavirus xəstəliyin diaqnostikası, maye əsaslı sitologiya, adi klassik sitologiya*

Uşaqlıq boynu xərçənginin etiologiyasının öyrənilməsində ən vacib nailiyyətlərdən biri insan papillomavirus infeksiyası (IPV) ilə uşaqlıq boynu xərçəng (UBX) arasında səbəb əlaqəsinin aşkar edilməsidir [1]. Etioloji baxımdan bəllidir ki, uşaqlıq boynu xərçənginin yaranması insan papilomavirusun virulentliyindən, yükləməsindən aslıdır və bu virus onkoginekoloji xəstəliklərin meydana çıxmasına səbəb olur. İnsan papillomavirusunun törətdiyi davamlı yoluxma uşaqlıq boynu xərçənginin əsas səbəbi hesab edilir. Bu virusun İPV16 və İPV18 tipləri təqribən 71% halda aşkar edilir [2].

Ədəbiyyata nəzər salaraq, aparılmış elmi tədqiqatlar göstərir ki 95% hallarda uşaqlıq boynu neoplaziyanın yaranmasında İPV-nin "yüksək risk" təşkil edən növləri HPV 16, 18, 31, 33 və 45 aiddir [3].

Qeyd etmək lazımdır ki, İPV çox xassəli kliniki təzahürlərə malik olmasını nəzərə alaraq, onkoginekoloji xəstəliklərin yaranmasında risk qrupunun müəyyənləşdirməsinə imkan yaradır. Bəzi regionlarda UBX-in əsas etioloji faktoru İPV olduğu nəzərə alınaraq 30-60 yaşlı qadınlar arasında İPV-testinin aparılması UBX-in erkən diaqnostika alqoritminə daxil edilməsi tövsiyə edilmişdir [4]. Skrininq proqramlarının sərt şəkildə həyata keçirilməsi inkişaf etmiş ölkələrdə uşaqlıq boynu xərçənginə məruz qalma və ölüm nisbətinin azaldılmasına gətirib çıxarmışdır [5]. Bu da, ilk növbədə, erkən diaqnostik meyarlarla müəyyən edilməsinə imkan yaradaraq, vaxtında yönəlmiş kompleks şəklində aktiv müasir müalicə-profilaktik tədbirlərin aparılması UBX qarşısının alınmasına səbəb olacaq və nəticədə qadınların sağlamlığının qorumağla birqə həyat keyfiyyətini, yaşdan asılı olmayaraq, bərpa edilməsinə yol açacaq. Bu baxımdan, qadınlarda uşaqlıq boynun xoşxassəli xəstəliklərin kliniki gedişatından aslı olaraq İPV-nin diaqnostika məqsədilə maye əsaslı sitoloji PAP-yaxma (Papanikolau üsulu ilə) və Bethesda sistemi üzrə qruplar arasında (əsas və nəzarət) müqayisəli statistik təhlili aparılmışdır.

Material və metodlar: Tədqiqat işinin klinik hissəsi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun (ETMGI) ambulator-poliklinik şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın laborator metodları ETMGI laboratoriyasında icra olunmuşdur. Tədqiqat işində qarşıya qoyulan vəzifələri həll etmək üçün, konsultasiya məqsədilə müraciət edən n=150 qadının klinik materialları daxil edilmişdir.Onlardan əsas qrupu anamnezində fon prosesləri və şişönü dəyişiklikləri qeyd edilən n=130 qadın təşkil etmişdir,nəzarət qrupuna isə normal sitoqrammaya malik n=20 qadın daxil edilmişdir. Əsas qrup 3 yarımqrupa bölünmüşdür. I yarımqrupu - reproduktiv yaş dövründə olan - n=50 xəstə, II yarımqrupu - premenopauza yaş dövründə olan - n=39 xəstə, III yarımqrupu postmenopauza dövründə olan - n=41 qadın. Tədqiqat işindən müayinə zamanı uşaqlıq boynu xərçəngi aşkar edilən qadınlar istisna edilmişdir.

Tədqiqata daxil olan bütün qadınlarda sitoloji müayinə aparılmışdır. Müayinə materialı üç sahədən götürülmüşdür - ektoserviksdən, çoxqatlı yastı epitellə silindrik epitelin sərhəddindən və endoserviksin aşağı 1/3 hissəsindən. Götürülmüş bütün yaxmalar Papanikolau metodu ilə rənglənmişdir. Sitoloji parametrləri qiymətləndirərkən qeyd edilməlidir ki, müayinə olunan qadınların hamısından PAP yaxma maye əsaslı sitologiya üsulu ilə bəzilərindən isə həm də klassik metodla götürümüşdür.

Tədqiqatın nəticələri və onların müzakirəsi:

Reproduktiv yaşda olan qadınların 7(14%), premenopauzada 10(25,6%) qadında, menopauzada 17(41,5%) qadında displaziya və maliqlanizasiya qeyd edilməmişdir. Lakin bəzi reproduktiv yaş üzrə olan 23(46%) qadında naməlum əhəmiyyətli atipik yastı hüceyrələr ASCUS; 16(32%) qadında aşağı differensial yastı hüceyrəli intraepitelial zədə LSİL, 4(8%) qadında yüksək differensiasiyalı intraepitelial neoplaziya HSİL çıxmışdır. Premenopauza yaş üzrə olan 13(33,3%) qadında ASCUS, 13(33,3%) qadında

LSİL, 2(5,1%) qadında HSİL; 1(2,6%) qadında AGUS çıxmışdır. Menopauza yaş üzrə olan 11(26,8%) qadında ASCUS; 7(17,1%) qadında LSİL; 2(4,9%) qadında HSİL, 4(9,8%) qadında AGUS çıxmışdır ($p_н$< 0,001). Həmçinin, nəzarət qrupdakı (NQ) qadınların 20(100%) nəticəsi normal sitoqramma olmuşdur.


Ənənəvi, yəni klassik metodla götürülən PAP yaxmanın qruplar üzrə müqayisəsi zamanı reproduktiv qrup üzrə 4(14,8%) qadında normal, 12(44,4%) qadında ASCUS, LSİL 6(22,2%) qadında, 2(7,4%) qadında qan elementləri, 1 (3,7%) qadında - iltihab elementləri, 2(7,4%) qadında yetərsiz müəyyən edilmişdir. Premenopauza yaş üzrə olan 1(6,3%) qadında normal, 5 (31,3%) qadında ASCUS; 7(43,8%) qadında LSİL; 5(20%) qadında qan elementləri, 2(12,5%) qadında iltihab elementləri, 1(6,3%) qadında yetərsiz müəyyən edilmişdir. Menopauza yaş üzrə olan 1 qadında (5,9%) normal, 5(29,4%) qadında ASCUS; 2(11,8%) qadında LSİL; HSİL - 3(17,6%) qadında, AGUS - 2(11,8%) qadında, 3(17,6%) qadında qan elementləri, 1(5,9%) qadında iltihab elementləri müəyyən edilmişdir. NQ üzrə isə 2(100%) qadında normal olmuşdur ($p_н$= 0,001).

Laborator- diaqnostik üsullarının müqayisəli təhlili əsas qruplarda nəzarət qrupu ilə əlaqədar əhəmiyyətli fərqlər aşkar etmişdir. Maye əsaslı (PAP-smear) və adi (PAP-klassik) sitologiyanın müqayisəli təhlilinin nəticələri şəkil 1 (a; b; c) diaqramlarda təsvir edilmişdir. Burada sual yaranır, hansı sitoloji tədqiqatlar daha əhəmiyyətli və informativdir: maye əsaslı (PAP-smear) və ya adi (PAP-klassik) üsullar.


Məlumdur ki, adi (PAP-klassik) üsulu aparakən, tədqiqat üçün material kimi götürülən yaxma, standart qaydalarına riayət etməklə, əl ilə hazırlanır. Maye əsaslı (PAP-smear) üsulunda hüceyrə suspenziyasından yaxmalar hazırlanır. Adı (PAP-klassik) üsulda, şüşəyə yaxma yaydıqdan sonra, spirt vasitəsilə fiksasiya olunur və bir sıra boyamalarla rənglənir, bu da hüceyrələrin dəyişməz vəziyyətində saxlamasına zəmin yaradır. Qeyd etmək lazımdır ki, bu proses daha yaxşı hüceyrə differensiyasiyasına kömək edir. Lakin maye əsaslı (PAP-smear) adi (PAP-klassik) sitologiyadan əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, PAP-smear ilə yaxma maye mühitə yerləşdirilir ki, bu da hüceyrənin daha yaxşı sabitləşməsinə kömək edir və sonradan aparılan sentrifuqasiya vasitəsilə "yuyulmuş hüceyrələr" aşkar edilir.

Aparılmış maye əsaslı PAP-smear və adi PAP-klassik sitoloji üsulların keyfiyyətinin müqayisəli təhlili həm qənaətbəxş və tək hallarda isə qeyri-qənaətbəxş nəticələr göstərmişdir. Təqdim olunan diaqramlarda (şək.1 a; b; c) aldığımız nəticələrə əsaslanaraq, hər iki müqayisə edilən üsulların informativ baxımdan göstəricilərin faiz şəkildə təhlili praktiki olaraq eynidir.


Xüsusilə, yüksək risk təşkil edən İPV-nin müsbət nəticələri ilə epitel hüceyrələrində patoloji dəyişikliklərin aşkar edilmə tezliyi bütün əsas qruplarda göstərilən intervallarda dəyişmişdir: 83,3% (PAP-smear üsulu) və 68,6% (PAP-klassik üsulu) hallarda I qrupda; 93,3% (PAP-smear) və 100% (PAP-klassik) hallarda II qrupda; 100% (PAP-smear) və 80% (PAP-klassik) hallarda III qrupda müvafiq olaraq (şək. 1 a; b; c).



Şəkil 1 (a). *PAP-smear və PAP - klassik üsulların müqaisəli təhlilin diaqramması (reproduktiv qrup üzrə)*



Şəkil 1 (b). *PAP-smear və PAP - klassik üsulların müqayisəli təhlilin diaqramması (premenopauza qrup üzrə)*




Şəkil 1 (c). *PAP-smear və PAP - klassik üsulların müqaisəli təhlilin diaqramması (menopauza qrup üzrə)*

Naməlum əhəmiyyətli atipik yastı hüceyrələr (ASCUS) yüksək riskli İPV(+) - 47,2% (PAP-smear) və 42,1% (PAP-klassik) hallarda I qrupda; 33,3% (PAP-smear) və 28,6% (PAP-klassik) hallarda II qrupda; 40% (PAP-smear) və 40% (PAP-klassik) hallarda III qrupda müvafiq olaraq göstərilən diapazonlarda dəyişmişdir. Aşağı differensial yastı hüceyrəli intraepitelial zədə (LSIL) yüksək riskli HPV(+) I qrup hallarının 25% (PAP-smear) və 15,8% (PAP-klassik) arasında dəyişmişdir; II qrupda 46,7% (PAP-smear) və 71,4% (PAP-klassik) hallarda; III qrupda müvafik olaraq 20% (PAP-smear) və 15,80% (PAP-klassik hallarda aşkar edilmişdir.

I qrupda yüksək differensiasiyalı intraepitelial neoplaziya (HSIL) 45,5% (PAP-smear) və 0% (PAP-klassik) hallarda; II qrupda 13,3% (PAP-smear) və 0% (PAP-klassik) hallarda; III qrupda müvafik olaraq 0% (PAP-smear) və 40% (PAP-klassik) hallarda aşkar edilmişdir.

Sitoloji tədqiqatların hər iki üsulunda atrofik hüceyrələr heç bir halda aşkar edilməmişdir.



Şəkil 2. *PAP-smear və PAP - klassik üsulların ımüqaisəli təhlilin diaqramması*

Müqaisəli təhlil göstərmişdir ki, PAP-smear üsulun həssaslığı 93,1% təşkil etmişdir, adi PAP klassik üsulun isə 81,3%. PAP-smear spesifikliyi 76,2%, adi PAP klassik üsulun isə - 70,6% təşkil etmişdir (şək. 2).

Ümumi olaraq keyfiyyət baxımından I qrup üzrə 5 halda, II qrup üzrə 3 qadında, III qrup üzrə 4 qadında, qrup üzrə isə 9 qadında ənənəvi adi PAP-klassik sitoloji analiz cavabının qənaətbəxş olmadığı aşkar edilmiş və sitoloji diaqnoz qoyulmamışdır. Qənaətbəxş olmayan yaxmanın səbəbləri, yaxmanın iltihab elementləri ilə, qan hüceyrələr ilə qarışdığı üçün mikropreparatda analiz üçün endoservikal hüceyrələrin kifayət qədər olmaması idi.

Nəticələr: Beləliklə, CIN və uşaqlıq boynu xərçənginin aşkarlanmasında maye əsaslı PAP-smear və adi PAP-klassik sitologiyanın diaqnostik əhəmiyyətinin müqayisəli təhlili göstərir ki, istifadə olunan hər iki üsul informativ və effektivdir. Vurğulamaq lazımdır ki, maye əsaslı sitologiya (PAP-smear) adi (PAP-klassik) üsula nisbətən ən həssas üsuldur, çünki bu, atipiyası olan hüceyrələnin morfologiyasını daha ətraflı araşdırmağa imkan verir. Əgər maye əsaslı sitologiyanın (PAP-smear) ənənəvi adi (PAP-klassik) üsulu ilə müqayisədə üstünlüklərini nəzərə alsaq, aşağıdakıları ayird edə bilərik: 1) üsul 93,1%-ə qədər PAP-smear həssaslıqla hüceyrə atipiyasını aşkar etməyə imkan verir; 2) - 6 aya qədər test materialı sabit şəkildə qalması; 3) - təkrar yaxma yerinə yetirmək imkanı; 4) - PZR aparma imkanı əldə etmə mümkünlüyü.

Maye əsaslı PAP-smear ənənəvi və adi PAP-klassik üsular, müxtəlif yaşda olan qadınlarda üşaqlıq boynu xərçənginin xərçəngönü xəstəliklərinin aşkarlanması üçün optimaldır.

Beləliklə, qadınlarda xərçəngönü xəstəliklərin erkən aşkarlanması üçün PAP-smear sitoloji metodun aparılması informativ əhəmiyyət kəsb edir ki, bu da PAP-smear üsulun praktik dəyərini müəyyən edir.

РЕЗЮМЕ

Сравнительный анализ жидкостного PAP-мазка и общепринятого PAP-классического цитологических методов в диагностике онкогинекологических заболеваний у женщин

Д.Ф. Курбанова, Н.Б. Меджидова
Научно-Исследовательский Институт Акушерства и Гинекологии, Азербайджан, Баку

Ключевые слова: *заболевания шейки матки, диагностика папилломавирусной инфекции, жидкостная цитология, традиционная цитология классический метод*

В статье показан сравнительный анализ жидкостного PAP-мазка и общепринятого PAP-классического цитологических методов в диагностике онкогинекологических заболеваний у женщин. Показано, что жидкостная цитология PAP-smear является наиболее чувствительным методом по сравнению с традиционным PAP-классическим методом. Жидкостной метод цитологии PAP-smear позволяет более детально выявить и изучить морфологию клеток с атипией по сравнению с традиционным PAP-классическим методом. Жидкостной метод цитологии PAP-smear имеет следующие преимущества перед общепринятым PAP- методом классической цитологии: 1) метод жидкостной цитологии позволяет выявить клеточную атипию с чувствительностью до 93,1%; 2) позволяет тестируемому материалу оставаться стабильным до 6 месяцев; 3) возможность повторного приготовления мазка; 4) возможность поведения полимеразной цепной реакции (ПЦР). Жидкостная цитология PAP-smear является информативным методом диагностики предраковых заболеваний у женщин, что определяет практическую его значимость.

SUMMARY

Comparative analysis of liqvid PAP-smear and generally accepted PAP-classical cytological methods in the diagnosis of onkogynecological diseases in women

J.F. Gurbanova, N.B. Mejidova
Research Institute of Obstetrics and Gynekology Azerbaijan, Baku

Key words: *diseases of the cervix, diagnosis of papillomavirus infection, liquid cytology, traditional cytology with classical method*

The article shows a comparative analysis of the liquid PAP- smear and the generally accepted PAP-classical cytological methods in the diaqnosis of oncogynecological diseases in women. It has been shown that PAP-smear liquid cytology is the most sensitive metohod compared to the traditional PAP-classical method. The PAP-smear liquid cytology method allows more detailed identification and study of the morphology of cells with atypical compared to the traditional PAP-classical method. The PAP-smear liquid cytology method has the following advantages over the conventional PAP-method of classical cytology: 1) the method of liquid cytology allows to detect cellular atypical with a sensitivity of up to 93,1%; 2) allows the tested material to remain stable for up to 6 months; 3) the possibility of the behavior of the PCR.

Liquid cytology PAP-smear is an informative method for diagnosing precancerous diseases in women, which determines its practical significance.

ƏDƏBİYYAT

1. Cəfərova, K.Ə. İnsan papilloma virusunun müxtəlif tipləri nəticəsində törəmələrin müasir diaqnostika metodları / K.Ə. Cəfərova, V.N. Cavadzadə // Azərbaycan onkologiya jurnalı, - 2020, N2.- s.43-45.
2. Gonzles V., Deluca G.D., Correa R.M. et al. Strong reduction in prevalence of HPV16/18 and closely related HPV types in sexually active // Papillomavirus Research 10 (2020) 100208.
3. Цервикальная интраэпителиальная неоплазия, эрозия и эктропион шейки матки. Клинические рекомендации. Москва, 2020, 59 стр., стр.10.

4. Гатагажева, З.М. Оценка информативности региональной скрининговой программы по выявлению патологии шейки матки / З.М. Гатагажева, З.Х. Узденова, О.В. Зеленова // Акушерство и гинекология, -2019, №7. - с.98-102.
5. Saslow D American Cancer Society guideline for the early detection of cervical neoplasia and cancer. // CA Cancer J. Clin. 2002; vol. 62, p.147-172.

D VİTAMİNİ ÇATIŞMAZLIĞI ZAMANI HAMİLƏLİK FƏSADLARI

E.M. Axundova, Z.B. Məmmədova
Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı Azərbaycan

Açar sözlər: *hamiləlik, D vitamini, preeklampsiya*

D vitamini defisiti müasir səhiyyənin problemlərindən biridir. D vitamini çatışmazlığı və defisiti ölkənin coğrafi mövqeyindən, insanların həyat tərzindən asılı olaraq müxtəlif qrup əhali arasında geniş yayılmışdır. Belə ki, D vitamini hipovitaminozu ABŞ əhalisi arasında 37%, Böyük Britaniyada 47%, Almaniyada 58%, Finlandiyada 65% hallarda rast gəlinir. [1-7] Koxreyn kitabxanasında olan məlumatlara əsasən hamilələr arasında D vitamini çatışmamazlığı ABŞ 33%, Böyük Britaniyada 35%, Türkiyədə 90%, İranda 67%, Pakistanda 58%, Küveytdə 83% hallarda rast gəlinir. Bu göstəricilərə nəzər saldıqda iqlim şəraitindən, coğrafi mövqeyindən asılı olmayaraq dünya əhali arasında D vitamini çatışmazlığının geniş yayıldığı görünür.

Son illər D vitamini çatışmazlığının orqanizmə təsiri haqqında bir çox yeni elmi tədqiqatlar aparılır. Bu onun klasik sümük-oynaq sisteminə göstərdiyi təsirlə yanaşı şəkərli diabet, piylənmə, autoimmun və ürək-damar, onkoloji, immunoloji xəstəliklərin yaranmasında rolunun aşkar edilməsi ilə əlaqədardır [8-14]. D vitamini digər vitaminlərdən fərqli olaraq bioloji aktiv deyil, o heç bir enzimin kofaktoru deyil, bir çox hormonlar kimi xolestroldan insan orqanizmində müstəqil şəkildə sintez olunur, ikimərhələli metabolizmə uğramaqla aktiv formaya çevrilir. Onun aktiv metaboliti özünü hormon kimi apardığı üçün D hormon adı almışdır. D vitaminin bioloji təsiri onun D vitamininə həssas reseptorlarla birləşməsindən sonra yaranır. Aparılan araşdırmalarda 38 müxtəlif orqan və toxumalarda VDR reseptorlar aşkar edilmişdir ki, bu da onun pleytrop təsirlərini izah edir. Hossein-Nezhad və yoldaşlarının apardığı tədqiqatda 1,25(OH)D3-nin 291 genin ekspresiyasının tənzimləsində iştirak etməsi müəyyən edilmişdir. D vitamini reseptorlarının 40 qədər orqan və toxumalarda, o cümlədən dəridə, süd, qalxanvari ətrafı, cinsiyyət vəzilərində, sklet əzələlərində, qanın monositlərində, B- və T- limfositlərdə aktiv olması müəyyən olunmuşdur.

Bir sıra tədqiqatlar D vitamininin xorionun vaskulyarizasiyasına, dölun inkişafına və böyüməsinə, plasentar hormonların sekresiyasının tənzimlənməsinə, iltihabəlehinə sitokinlərin sintezini azaldılmasına təsir etdiyini aşkarlamışdırlar. Klinisistlər sonsuzluqda, yardımçı texnologiyaların uğursuzluğunda, endometrioz, yumurtalıqların polikistozu kimi xəstəliklərdə D vitamini çatışmazlığının rolunu vurğulayırlar. [8-11]

Hamiləlik və zahılıq dövrü zamanı D vitaminin xüsusi əhəmiyyəti var. Hamiləliyin I və II trimestirdə pozulması, plasentar çatışmazlığın yaranması, preeklampsiya, hestasion diabet, hestasion hipertenziya, osteopeniya, hamiləliklərin daha çox hallarda Qeysəriyyə kəsiyi əməliyyatı ilə sonlandırılması, azçəkili uşaqların doğulması kimi halların patogenezində D vitamini çatışmazlığının rolu haqqında məlumatlar təzadlıdır. [12-15] Əgər D vitamininin bu ağırlaşmalarda rolu çoxsaylı tədqiqatlarda təsdiqlənərsə, onun səviyyəsinin qanda tənzimlənməsi bu ağırlaşmaların profilaktikasında böyük əhəmiyyət daşıyacaqdır. Məhz bu baxımdan artıq vitamin adını yox prohormon adını daşıyan D vitaminin hamiləlik ağırlaşmalarının yaranmasında rolunun araşdırılması böyük əhəmiyyət kəsb edir.

Tədqiqatın məqsədi: hamiləliyin hestasion və perinatal ağırlaşmalarında D vitamin çatışmazlığın rolunun qiymətləndirilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitunda aparılmışdır. Bu məqsədlə hamiləliyin birinci trimestrində olan 120 hamilə seçilmişdir. Hamilələr D vitamini çatışmazlığı və D vitaminin səviyyəsi normal olanlar olmaqla iki qrupa ayrılmışdırlar. I qrupa daxil olan hamilələrdə D vitaminin miqdarı 30 nq/ml-dən aşağı II qrupa daxil olan hamilələrin D vitamini 30 nq/ml-dən yüksək olmuşdur.

Daxilolma kriteriləri: yaşı 18-45 arası, 13 həftəyə qədər, təkdöllü hamilələr.

Xaricetmə kriteriləri: xroniki böyrək, mədə-bağırsaq, onkoloji, psoriaz, revmatizm, sistem xəstəlikləri olmuşdur.

Qoyulan məqsədin öyrənilməsi üçün hamilələrə ümumi baxış aparılmış, antropometrik göstəriciləri, BÇİ, nəbz, arterial təzyiqləri ölçülmüşdür. Laborator müayinələrdən qanın və sidiyin, yaxmanın ümumi analizi, koaquloqramma, qanda qlükoza, insulin, 25(OH)D vitamininin səviyyəsinin nəticələri qeyd edilmişdir. Hamiləlikdə hestoz, plasentar çatışmazlıq, düşük təhlükəsi, erkən doğum təhlükəsi, dölyanı mayenin vaxtından əvvəl axması, anemiya, doğum fəaliyyətinin anomaliyası, hamiləliyin sonlandırma üsulu, zahılıq dövrünün ağırlaşmaları, yenidoğulmuşların adaptasiyası barədə məlumatlar qeyd edilmişdir.

Müşahidə altına 18-45 yaş hədlərində hamilələr götürülmüşdürlər ki, onlar da 3 yaş qrupuna bölünmüşdürlər: 18-28, 29-35, 36-45. D vitaminin səviyyəsi aşağı olan hamiləllərin 26 nəfəri (43,3%) 18-28 yaş, 32 nəfəri (53,3%) 29-35 yaş, 2 nəfəri (3,3%) 36-45 yaş hədlərindədir. D vitamininin səviyyəsi normal olan hamilələrdən isə 38 nəfəri (63,3%) 18-28 yaş, 14 nəfəri (23,3%) 29- 35 yaş, 8 nəfəri (13,3%) 36-45 yaş hədlərində olmuşdurlar. Buradan göründüyü kimi D vitaminin çatışmamazlığı əsasən 29-35 yaş arası olan hamilələrdə faiz etibarı daha çox rast gəlinsə də, qruplar üzrə ciddi fərq alınmamışıdr. Əsas qrupda 5 hamilədə (8,3%) I dərəcəli piylənmə, 27 hamilədə (45%) II dərəcəli, 8 hamilədə (13,3%) III dərəcəli piylənmə müşahidə olunmuşdur. 2 hamilədə (3,3%) BÇİ 25 kq/m2-dan aşağı olmuşdur. Kontrol qrupda isə I dərəcəli piylənmə 14nəfərdə(23,3%), II dərəcəli piylənmə 13 nəfərdə(21,7%), 3 nəfərdə (5,0%) isə III dərəcəli piylənmə müəyyən edilmişdir. Müqaisə zamanı D vitaminin səviyyəsi aşağı olan hamilələrdə daha çox piylənmə rast gəlindiyi aşkarlanmışdır. Tədqiqata cəlb edilən hamilələrin əksəriyyəti 104 nəfəri mərkəzdə 16 nəfəri isə regionlarda yaşayanlar olmuşdurlar. Qruplar arasında yaşayış yerinə görə fərq alınmamışdır.

D vitaminin səviyyəsi normadan aşağı olan hamilələrin anamnezində ginekoloji xəstəliklər yumurtalıqların disfunksiyası 13 hamilədə (21,3%), uşaqlığın mioması 4 hamilədə (6,7%), sonsuzluq 8 hamilədə (13,3%) müəyyən edilmişdirsə, D vitamininin səviyyəsi normal olar arasında bu xəstəliklərə 2(3,3%), 1(1,7%),5 (8,3%) hamilədə təsadüf edilmişdir.

Somatik xəstəliklərdən əsas qrupda daha çox aşağı ətraf venalarının varikozuna 2(3,3%), xroniki hipertoniyaya 15(33,3%), 2-ci tip şəkərli diabetə 5(8,3%) rast gəlinmişdirsə, kontrol qrupda 8(13,3%) aşağı ətrafların varikozu, 4(6,7%) xroniki hipertoniya qadında müəyyən edilmişdir.

Hamilək zamanı anemiyaya I qrupda 20 hamilədə (33.3%%) II qrupda 22 hamilədə (36,3%) təsadüf edilmişdir. Bu da D vitamini çatışmazlığının anemiya ilə əlaqəsi olmadığını göstərir.

Əsas və kontrol qruplar arasında müqaisə apardıqda hamiləliyin birinci trimestrinin ağırlaşmalarından olan erkən toksikozun əsas qrupa daxil olan 16 hamilədə (26,7%), kontrol qrupda isə 10 hamilədə (16,7%) rast gəlindiyi müəyyən edilmişdir.

Düşük təhlükəsi D vitaminin səviyyəsi aşağı olan 15 hamilədə (25,0%), D vitaminin səviyyi normal olan 3 hamilədə(5,0 %) yaranmışdır. Erkən doğum təhlükəsi isə əsas qrupda 4 hamilədə (6,7%), kontrol qrupda isə rast 1 hamilədə(1,7%) müəyyən edilmişdir.

Hamiləliyin ciddi ağırlaşmalarından olan preeklampsiya isə əsas qrupda 17 nəfər (28,2%) nəzarət qrupunda isə 5 nəfər (6,3%) hamilədə rast gəlindiyi müəyyən edilmişdir. Göründüyü kimi D vitamini çatışmazlığı ilə preeklampsiyalar rastgəlmə tezliyi arasında asılılıq var.


USM nəticələrinə görə D vitaminin səviyyəsi normal olan qrupda 2 həftə inkişaf ləngiməsi 1 döldə (1,7%), D vitamininin səviyyəsi aşağı olanlardan 6 döldə(10,0%) müşahidə olunmuşdur. Həmçinin əsas qrupda 4 hamilədə (6,7%) dölün çəkisinin hestasiya müddətinə nisbətən yüksək olması müəyyən edilmişdir. Aparılan dopler müayinələrində cift qan dövranının pozulması əsas qrupda 10 hamilədə (16,7%), kontrol qrupda isə 2 hamilədə (3,4%) rast gəlinmişdir.

Əsas qrupda 11(18,3%), kontrol qrupda isə 2 (3,3%) hamilədə hamiləlik 37 həftədən öncə vaxtından əvvəl doğuşla nəticələnmişdir. Dölyanı mayenin vaxtından əvvəl axması I qrupda 20 (33,4%), II qrupda 9 (15,0%) hamilədə təsadüf etmişdir. Dölyanı mayenin vaxtından əvvəl axması D vitamininin bakterial vaginoza göstərdiyi təsirlə əlaqələndirilə bilər.

Hamiləlik əsas qrupda 48 nəfərdə (80%), kontrol qrupda isə 35 nəfərdə (58,3%) Qeysəriyyə kəsiyi əməliyyatı yolu ilə sonlandırılmışdır.

Zahılıq dövrü ağırlaşmaları əsas qrupda 4 hamilədə (6,7%), kontrol qrupda isə müşahidə olunmamışdır.

Əsas qrupda hestasiya yaşına görə azçəkili uşaqlar 13 (21,7%), kontrol qrupda isə 3 (5,0%) artıqçəkili uşaqlar isə uyğun olaraq 9(15,0%) 2 (3.3%) doğuşda rast gəlinmişdir.



Beləliklə, apardığımız tədqiqatda günəşli bir ölkədə yaşadığımıza baxmayaraq D vitamini çatışmazlığı bizim ölkə üçün də aktual olduğu müəyyən olundu. D vitamini çatışmazlığı ilə piylənmə arasında asılılıq olduğu bir daha təsdiqləndi. Eyni zamanda D vitamini çatışmazlığı zamanı preeklampsiya, düşük təhlükəsi, erkən doğum,dölyanı mayenin vaxtından əvvəl axması, dölün bətndaxili inkişaf ləngiməsi, cift qan dövranı pozğunluğu kimi halların daha çox rast gəlməsi müəyyən edilmişdir. Həmçinin bu qrupda olan hamilələrin hamilələkləri daha çox hallarda Qeysəriyyə kəsiyi əməliyyatı ilə sonlanmışdır, zahılıq dövründə isə uşaqlığın subinvolyusiyası, endometrit kimi ağırlaşmalara daha çox rast gəlinmişdir.

РЕЗЮМЕ

Осложнения беременности при дефиците витамина D

Е.М. Ахундова, З.Б. Мамедова
Научно-Исследовательский Институт Акушерства и Гинекологии, Баку, Азербайджан

Ключевые слова: *беременность, витамин Д, преэклампсия*

Витамин D и его влияние на организм – одна из актуальных тем в современном здравоохранении. Проведённые исследования указывают, что снижение концентрации витамина D – потенциальный значимый фактор риска для таких заболеваний, как рак, сердечно-сосудистые заболевания, сахарный диабет, артериальная гипертензия, аутоиммунные заболевания, нарушения обмена веществ, ожирения, инфекционные заболевания, вызванные снижением иммунитета,

SUMMARY

Complications of pregnancy in vitamin D deficiency

E.M. Akhundova, Z.B. Mammadova
Scientifie Research Institute of Obstetrics and Gynecology, Baku, Azerbaijan

Keywords: *pregnancy, vitamin D, preeclampsia*

Vitamin D and its effect on the body is one of the actual topics in modern healthcare. Studies indicate that a decrease in vitamin D concentration is a potential significant risk factor for diseases such as cancer, cardiovascular diseases, diabetes mellitus, arterial hypertension, autoimmune diseases, metabolic disorders, infectious diseases caused by reduced immunity, and some neuropsychiatric disorders. Over the past decade, studies have linked vitamin D deficiency during pregnancy to a wide

и некоторые психоневрологические расстройства. За последнее десятилетие проведены исследования, связывающие дефицит витамина D во время беременности с широким спектром неблагоприятных перинатальных и неонатальных исходов, которые включают угрозу прерывание беременности, преэклампсию, преждевременные роды, гестационный диабет, бактериальный вагиноз, синдром задержки роста плода, низкую массу тела при рождении, нарушение эмбрионального скелетного формирования и снижение костной массы. С этой точки зрения важно изучить роль витамина D, который уже не называют витамином, а прогормоном, в развитии осложнений беременности.

range of adverse perinatal, fetal, and neonatal outcomes, including threatened miscarriage, preeclampsia, preterm birth, gestational diabetes, bacterial vaginosis, fetal growth retardation syndrome, low birth weight, and birth, impaired embryonic skeletal formation and reduced bone mass. From this point of view, it is important to study the role of vitamin D, which is no longer called a vitamin, but a prohormone, in the development of pregnancy complications.

ƏDƏBİYYAT

1. Burgaz A, Orsini N, Larsson SC et al. Blood 25-hydroxyvitamin D concentration and hypertension: a metaanalysis. J Hypertens 2011; 29: 636-645.
2. Boucher BJ. Is vitamin D status relevant to metabolic syndrome? Dermatoendocrinol 2012; 4: 212-224.
3. Cabaset S, Krieger JP, Richard A, Elgizouli M, Nieters A, Rohrmann S, et al. Vitamin D status and its determinants in healthy pregnant women living in Switzerland in the first trimester of pregnancy. BMC Pregnancy Childbirth. 2019;19;10. https://doi.org/10.1186/s12884-018-2150-1
4. De-Regil LM, Palacios C, Lombardo LK, Peña-Rosas JP. Vitamin D supplementation for women during pregnancy. Cochrane Database Syst Rev. 2016;2016:CD008873. https://doi.org/10.1002/14651858.CD008873.pub3
5. Garland CF, French CB, Baggerly LL et al. Vitamin D supplement doses and serum 25-hydroxyvitamin D in the range associated with cancer prevention. Anticancer Res 2011; 31: 617-622.
6. Grant WB. Relation between prediagnostic serum 25-hydroxyvitamin D level and incidence of breast, colorectal, and other cancers. J Photochem Photobiol B: Biol, 2010; 101: 130-136.
7. Hilger J, Friedel A, Herr R, Rausch T, Roos F, Wahl DA, et al. A systematic review of vitamin D status in populations worldwide. Br J Nutr. 2014;111:23-45. https://doi.org/10.1017/S0007114513001840
8. Hewison M. Vitamin D and immune function: autocrine, paracrine or endocrine? Scand J Clin Lab Invest (Suppl.) 2012; 243: 92-1029.
9. Khan H, Kunutsor S, Franco OH et al. Vitamin D, type 2 diabetes and other metabolic outcomes: a systematic review and meta-analysis of prospective studies. Proc Nutr Soc 2012; 30: 1-920. Llewellyn DJ, Lang IA, Langa KM et al. Vitamin D and risk of cognitive decline in elderly persons. Arch Intern Med 2010; 170: 1135-1141.
10. Mitri J, Muraru MD, Pittas AG. Vitamin D and type 2 diabetes: a systematic review. Eur J Clin Nutr 2011; 65: 1005-1015.
11. Pilz S, Tomaschitz A, Marz W et al. Vitamin D, cardiovascular disease and mortality. Clin Endocrinol (Oxf) 2011; 75: 575-584.
12. Pittas AG, Nelson J, Mitri J et al. Diabetes Prevention Program Research Group. Plasma 25-hydroxyvitamin D and progression to diabetes in patients at risk for diabetes: an ancillary analysis in the Diabetes Prevention Program. Diabetes Care 2012; 35: 565-573.
13. Pittas AG, Chung M, Trikalinos T et al. Systematic 116 Журнал Гродненского государственного медицинского университета № 2, 2014 г. review: Vitamin D and cardiometabolic outcomes. Ann Intern Med 2010; 152: 307-314.

14. Wagner CL, Hollis BW, Kotsa K, Fakhoury H, Karras SN. Vitamin D administration during pregnancy as prevention for pregnancy, neonatal and postnatal complications. Rev Endocr Metab Disord. 2017;18:307–22. https://doi.org/10.1007/s11154-017-9414-3
15. Wang L, Song Y, Manson JE et al. Circulating 5-hydroxy-vitamin D and risk of cardiovascular disease: A meta-analysis of prospective studies. Circ Cardiovasc Qual Outcomes 2012; 1; 5: 819-829.
16. Zhou S-S, Tao Y-H, Huang K, Zhu B-B, Tao F-B. Vitamin D and risk of preterm birth: up-to-date meta-analysis of randomized controlled trials and observational studies. J Obstet Gynaecol Res. 2017;43:247–56. https://doi.org/10.1111/jog.13239

Qeydlər / Заметки / Notes